SƏNƏTŞÜNASLIQ ART CRITICISM ИСКУССТВОВЕДЕНИЕ

DOI: 10.36719/AEM/2007-2020/53/205-208

Səbinə Həbib qızı Abbaslı
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
sabinaabbas93@mail.ru

XX ƏSR AZƏRBAYCAN BƏDİİ METAL SƏNƏTİNİN İNKİŞAFI

Açar sözlər: *bədii metal, texnika, ənənəvi, dəmirçilik sənəti, misgərlik sənəti, zərgərlik sənəti*
Key words: *art metal, technique, traditional, blacksmith, coppering, jewellery art*
Ключевые слова: *художественный металл, техника, традиционное, железное ремесло, медничество, ювелирное искусство*

Hələ qədim zamanlardan bəri bədii metal sənəti Azərbaycan ərazisində ən çox inkişaf etmiş sənətlərdən biri idi. Azərbaycanda eneolit dövründə mis kəşf edildikdən sonra metal ibtidai icma cəmiyyətinin iqtisadi, təsərrüfat, ictimai və mədəni həyatında görkəmli rol oynamağa başlayır. Bu zaman başqa metallar da tapılıb müəyyənləşdirilir. Misal üçün, qurğuşun, qalay, marqanes metallarının kəşfi Azərbaycan tarixində yeni və mütərəqqi bir dövrün, tunc dövrünün başlanması ilə bağlıdır. Azərbaycan ərazisində qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ e.ə. II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və s. zinət əşyaları düzəldib öz həyat və məişətlərində istifadə edirlərmiş. Bəşəriyyət tarixində "tunc dövrü" adlanan bu dövr Azərbaycana, 4 min il bundan əvvəl olduğuna baxmayaraq çox zəngin maddi mədəniyyət nümunələri vermişdir. Məhz buna görə də məşhur rus alimi, akademik İ.İ.Meşşaninov Azərbaycanın ərazisini zəngin və təbii muzey adlandırmışdır.

XX əsrdə Azərbaycanda bədii metal sənəti əsasən üç istiqamətdə inkişaf etmişdir. Bunlar dəmirçilik, misgərlik və zərgərlik sənəti idi.

Dəmirçilik, adından da məlum olduğu kimi, Daş dövründən sonra meydana gəlmiş bir sənətdir. Dəmirçi isə bu qədim el və xalq sənətini qoruyub bu günümüzə gətirib çatdıran, zindan üzərində, qolunun gücünə dəmiri "yoğuraraq" müxtəlif formalara salan, ən ağır əmək sərf edən sənət sahibidir. Onun əsas materialları dəmir, çuqun, mis, qalay və digər əlvan metallardır ki, respublikamız da bu təbii sərvətlərlə olduqca zəngindir.

Dəmirçilərin əmək alətləri də digər peşələrdə istifadə olunanlardan sadəliyinə görə fərqlənir: çəkiclər (böyük çəkic 2-16 kq, əl çəkicləri 0,5-2 kq ağırlığında), zindanlar (buynuzsuz, bir və ya ikibuynuzlu), kəlbətinlər, pazlar və s. Bunlardan öncə dəmirçinin əsas işini körük və daş kömürlə (son vaxtlar maye qazla) işləyən açıq soba görür. Onu da qeyd etməliyik ki, dəmirçilərin mexaniki çəkicləri (oynaq, qayış, buxar, pnevmatik və hidravlik) də olur. Bu çəkiclər son dövrlər istifadə olunan əmək alətləri sırasındadır.

Azərbaycanın bütün bölgələrində dəmirçilik peşəsi əsrlər boyu yaşadılıb və nəsillər dəyişdikcə ondan istifadə formaları da yeniləşib. Qarabağın zəngin dəmir filizi yataqları qədim zamanlardan başlayaraq yerli xammal əsasında dəmirçilik sənətinin meydana gəlməsində və inkişaf etdirilməsində mühüm rol oynayıb. Burada bəsit istehsal texnikasına əsaslanan filizəritmədə körüklü kürələrdən istifadə edilib. Proses belə olur: filiz parçaları kömürlə birlikdə kürənin odluğuna qoyulur. Qoşa körük vasitəsilə yaradılan yüksək temperatur filizi əridir. Kürənin odluğundakı qaynar metal kütləsindən ərinti zamanı əmələ gələn pas isə kəfkir vasitəsilə çıxarılır, təmizlənir. Əlbəttə, sırf dəmir əldə etmək üçün bu, kifayət etmir. Odur ki, dəmirçi ərintini saf dəmir halına gələnədək onu zindan üzərində döyür. Çəkic və zindanların əhəmiyyəti, ilk növbədə, burada üzə çıxır. Ona görə də əvvəllər yerli xammaldan hazırlanmış dəmir məmulatı davamlılığı və saflığına görə digər yerlərdən gətirilənlərdən fərqlənir və üstünlük təşkil edirdi.

XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanda dəmirçilik sənəti xüsusilə geniş yayılmışdır. Dəmirçilər əsas etibarilə kənd təsərrüfatı alətləri və məişətdə işlədilən əşyalar hazırlayırdılar. Məişətdə işlədilən alətlər sırf praktiki xarakter daşısa da, öz orijinal forması və bəzəkləri ilə diqqəti cəlb edir.

Hazırda bu dövrdə Gəncə, Şəki, Naxçıvan, Şuşa dəmirçiləri tərəfindən düzəldilmiş və muzeylərimizin bəzəyi sayılan bir çox məişət əşyaları: manqal, sacayağı, çapacaq, qapı dəstəyi, maşa və s. qalmışdır. Bu məmulatlar Azərbaycan dəmirçilərinin əl qabiliyyətindən xəbər verən qiymətli dəlillərdir. Bu dövrdə Azərbaycanda elə kəndlər var idi ki, oranın bütün əhalisi bu sənətlə məşğul olurdu. Buna Şamaxı yaxınlığındakı Dəmirçilər kəndi misal ola bilər.

Qədim xalq sənət növlərindən biri də Dəmir dövründən qalma misgərlikdir. Aparılan tədqiqatlar təsdiqləyir ki, Azərbaycanda misgərliyin yaradılması çox erkən dövrlərə təsadüf edir və ölkəmiz onun inkişaf edən mərkəzlərindən biri olub. Bu ərazilərdə tapılan ilk mis metal işləmələrin tarixi Neolit dövrünə aiddir. Miladdan əvvəl VI minillikdə mis əldə edildikdən sonra ondan müxtəlif əşyalar hazırlanıb.

Bir sənət kimi onun təşəkkülü artıq orta əsrlərdə böyük şəhərlərin misgərlik mərkəzinə çevrilməsinə gətirib çıxarıb. Azərbaycanda misgərliyin hələ erkən dövrlərdən yüksək inkişaf etdiyini bir sıra Avropa ölkələrində, o cümlədən Rusiya muzeylərində saxlanan mis eksponatlar da sübut edir.

Azərbaycanda bu əsrlərdə elə yerlər var idi ki, nəinki bir-iki küçə, hətta əhalinin əksəriyyəti misgərlik sənəti ilə məşğul olurdu. Belə mərkəzlərdən biri o vaxtlar Şamaxı xanlığına daxil olan Lahıc idi.

XIX əsrdən başlayaraq Lahıc misgərliyin əsas mərkəzinə çevrilib. Lahıc ustalarının misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, sərpuc, güyüm, teşt, məcməi, sini, dolça, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və s. məmulatlar Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və digər yerlərdə tanınıb.

Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında olmuş venesiyalı səyyah Kontarinin yazdığına görə, burada hər gün hökmdarın ətrafındakı təxminən 400 nəfərə mis qablarda yemək verilirmiş.

Təsərrüfat və məişətin müxtəlif sahələrində yaranan gündəlik tələbatları ödəyən misgərlik sənəti 40-dan artıq çeşiddə müxtəlif mis qab-qacağın, mərasim və məişət əşyasının yaranmasına səbəb olmuşdur. Bütün bu misgərlik əşyaları funksional təyinatına funksional təyinatına görə 4 qrupda təsnifatlandırılır. Bunlar maye qabları, mətbəx qabları və avadanlığı, süfrə qabları və avadanlığı, ev-məişət əşyaları.

Maye üçün istifadə olunan mis qablar arasında dolça, güyüm, aftafa, dolça, piyalə, parç, badya, lüləyin, hamam tası, tayqulp, çaydan, qəhvədan, abgərdən və digərlərinin adlarını çəkmək olar. Bu qabların coxusu zəngin nəbati naxışlar və kalliqrafik yazılarla bəzədilmişdir.

Ənənəvi mis qab-qacaq içində mətbəxdə istifadə olunan qabların da sayı az deyildi. Əsasən çörək və xörək bişirmək, müxtəlif ağartı məhsulları hazırlamaq, mürəbbələr və quru meyvələr hazırlamaq, ərzaq ehtiyatı saxlamaq üçün istifadə olunan bu qablar müxtəlif formaya və ölçüyə malik olmuşlar. Bununla yanaşı, müxtəlif təyinatlı mətbəx alətləri və avadanlığı da misgər ustalar tərəfindən böyük məharətlə hazırlanırdı.

Ənənəvi misgərlik məmulatları arasında süfrə qabları ayrıca qrup təşkil edir. Bu qablar istifadəsinə görə fərdi və kollektiv səciyyə daşıyırdı. Cam, kasa, nimçə, fincan, şərbəti, piyalə, masqura və digərləri fərdi süfrə qablarına aiddirlər.

Məcməyi, sini, sərpuş, ləngəri, dəhmərdan və sair, kollektiv istifadə üçün nəzərdə tutulmuş qablardır. Camlar böyük, orta və kiçik ölçülərdə olaraq, daxili səthi - saya, xarici isə - naxışlı olurdu. Camın orta ölçülü növü – kasa, kiçik ölçülü –piyalə və ya masqura adlanırdı.

Misgərlik kolleksiyasının böyük hissəsini ev-məişət əşyaları təşkil edir. Gündəlik və müxtəlif növ mərasim tələbatlarını ödəyən belə nümunələr interyerin tərkib hissəsi olaraq, o dövr insanlarının əşyalara olan praktiki münasibətini və dizayn təfəkkürünü əks etdirir. Eyni zamanda, bu əşyalar ənənəvi cəmiyyətdə yaşayan insanların estetik təsəvvürlərini, bədii normalarını və dəbi əks etdirmişlər.

Lahıcda bu əsrdə kulli miqdarda məişət əşyası və ev avadanlığı hazırlanırdı. Buradakı məhsullar həm keyfiyyət, həm də kəmiyyət baxımından o dövrün mərkəzi şəhərlərində hazırlanan məişət əşyalarından hec də geri qalmayıb. Hələ XIX əsrin ortalarında Lahıcda 190-a yaxın mis karxanası olub. XIX-XX əsrlərdə Rusiyadan ucuz qiymətə gətirilən qab-qacaq bu sənətə təsir etsə də, böyük tarixə malik olan misgərlik yenə metalişləmədə əsas yerlərdən birini tutub. Həmin dövrlərdə mis qablara hətta qonşu ölkələrdə də böyük ehtiyac duyulurdu. Təəssüf ki, əvvəlki dövrlərə nisbətən son illər mis məmulatlarının həm forması, həm də bəzək motivləri xeyli sadələşib. Artıq XX əsrin əvvəllərində bu məişət əşyalarının kəmiyyəti kimi, keyfiyyəti də getdikcə aşağı düşüb. Asan və ucuz başa gələn şüşə, saxsı, çuqun, dəmir qablar getdikcə mis məmulatlarını aradan çıxarmağa çalışır. Lakin bütün bunlara baxmayaraq, misgərlik əvvəlki gücünü saxlamasa da, bu qədim el sənətinin daşıyıcıları tərəfindən yaşadılır.

Metalişləmənin o biri növlərinə nisbətən zərgərlik sənəti bu əsrlərdə daha çox keçmiş dövrün mütərəqqi ənənələrinə sadiq qalmışdı. Əvvəlki dövrlərdə Azərbaycan qadınları tərəfindən sevilib gəzdirilən üzük, sırğa, bilərzik, sinəbənd, kəmər və s. yenə də dəbdə idi. Dəmirçilik və misgərliyə nisbətən bu sənət daha çox şəhərlərdə inkişaf etmişdi. Əvvəlki əsrlərdə olduğu kimi, bu əsrlərdə də zərgərlik mərkəzi Bakı, Gəncə, Şamaxı, Şəki və Şuşa idi.

Həmin illərdə zərgərlik sənətimizin inkişafına 1935-1936-cı illərdə Bakıda təşkil olunmuş zərgərlik fabriki böyük təkan verir. Buraya şəbəkəçi zərgərlər, həkkak və qəlibkarlar cəlb olundu. Fabrikin inkişafında xalq zərgərlərindən, ilk növbədə H.Quliyev, H.Haşımov və M.Səfərzadənin böyük rolu olmuşdur.

Beləliklə, sovet dövründə zərgərlik Azərbaycanda iki istiqamətdə - fabrik istehsalında və xalq zərgərlik yaradıcılığı yolu ilə artellərdə davam etdirilirdi. Həmin illərdə Bakı zərgərlik fabrikində Qərb üslubunda hazırlanmış nümunələr də modernizə edilirdi. Bu illərdə zərgərlik fabrikində məişətdə istifadəsinə ehtiyac duyulan zinət şeyləri (üzük, sırğa, bilərzik) daha çox istehsal olunurdu. Qərbin üzük modellərindən vaxtaşırı surətdə istifadə edilirdi. Fabrikdə milli zərgərlik nümunələrindən olan "paxlava" və ya "badamı" adlı "gül", "təkqaş" üzüklər, "badamı", "xəmrəşı" sırğalar modernizə edilir, onların hər bir kiçicik hissəsi belə ovma, yonma əsasında sərrast surətdə biçilir, sonra da yonulmuş bu hissəciklər lehimlə birləşdirilirdi.

Həmin illərdə respublikamızın zərgərləri də öz yaradıcılıqlarında böyük müvəffəqiyyətlər əldə etmişdilər. Yeni materiallara müraciət edən Azərbaycanın zərgərlik incəsənəti bu illərdə özünün metal emalının ən qədim bədii üsullarını da saxlamış oldu. Əvvəllər olduğu kimi həmin illərdə Azərbaycanın zərgərlik incəsənətində əsas yeri şəbəkəçilik işi tuturdu. Xalq ustaları qızılın, gümüşün nazik simlərindən və melxiordan keçmişin ən yaxşı nümunələrindən heç də geri qalmayan mürəkkəb forma və bəzəkli sənət əsərləri hazırlayırdılar.

1960-cı illərdən başlayaraq bədii metalın zəngin növlərindən sayılan zərgərlik sənəti müxtəlif səbəblərlə əlaqədar olaraq, daha çox Şəki, Naxçıvan, Gəncə və Lənkəran şəhərinin ustaları tərəfindən inkişaf etdirilirdi.

Şəki zərgərləri Ə.Məmmədov, C.Əyyubov, Naxçıvan zərgərləri usta Mahmud və onun şagirdləri M.Seyidovun, A.Nəbiyevin, Ə.Əliyevin bu sənətin yerli ənənələr əsasında inkişaf etdirilməsində böyük rolları olmuşdur.

Məşhur azərbaycanlı zərgər, Azərbaycan Rəssamlar İttifaqının üzvü Cəmaləddin Eyyubovun əsərləri dəfələrlə beynəlxalq zərgərlik sərgilərində nümayiş etdirilmişdir. Ustadın bir çox əsərləri dünyanın bir çox ölkələrində dövlət və şəxsi kolleksiyalarda saxlanılır. Bu heç də təəccüblü deyil, çünki onun yaratdığı hər bir iş əsl zərgərlik əsəridir və ən təəccüblüsü də budur ki, Cəmaləddin Eyyubov bu sənəti özü öyrənmişdir, üstəlik, qohumları arasında da heç vaxt zərgər olmayıb.

Sənətkarın 1975-cü ildə yaratmış olduğu "Sevil" adlı boyunbağı onun yaradıcılığında ilk mühüm uğuru olmuşdur. Melxior, gümüş və minadan yaradılmış bu zərgərlik nümunəsi öz incəliyi ilə insanı valeh edir. 7 filiqran rozetkalar bir-biri ilə iki sıra zəncir vasitəsi ilə birləşdirilib. Rozetkaların hər biri onların alt hissəsinə bərkidilmiş damcıya bənzər asılqan ilə bəzədilib. Suyun rəmzi qismində çıxış edən damcı təmizliyi və paklığı simvolizə edir. Bununla yanaşı su həyat mənbəyidir. "7" rəqəmi Şərqdə müqəddəs olduğundan sənətkar öz əl işində məhz bu rəqəmə müraciət etmişdir. Rozetkaları bir-biri ilə birləşdirən zəncirlər birliyin dağılmazlığının təminatı və rəmzidir.

Boyunbağının arxa hissəsində qoşa zəncir bir zəncir ilə əvəz olunur, keçid yeri isə "ikili buta" ilə bərkidilib. Azərbaycan ornament ənənəsində butadan ibarət olan kompozisiyanın çoxsaylı növləri mövcuddur. "Sevil" adlı boyunbağıda zərgər "aşiq olmuş buta" növünə müraciət edir: iki damcı, iki qönçə bir-birinə doğru əyilir... Bu kompozisiya ənənəvi olaraq nəslin davamını simvolizə edir.

Metalda təcəssüm olunmuş xeyir-dua rəmzi kimi qəbul olunan bu incəsənət nümunəsini gənc zərgər nişan günündə öz yarına hədiyyə etmiş və bu səbəbdən onun adına uyğun olaraq adlandırmışdır. Bu zərgərlik nümunəsi öz sahibəsinin o qədər xoşuna gəlir ki, o bu boyunbağını toy günü də taxır.

Şəki sənətkarlarından başqa bu dövrdə digər bir çox sənətkarlar də öz əsərləri ilə insanı valeh edirdilər. Onların arasında Rəşid Məmmədov, Məhəmməd Şamov, Nina Paşayeva, Əli Əhmədov, Əlimuxtar Zeynalov kimi sənətkarların adını çəkmək yerinə düşər.

XX əsr Azərbaycan şəbəkə ustaları arasında zərgərlik sənətində nadir hal hesab olunan qadın sənətkar Nina Paşayevanın yaradıcılığı xüsusi diqqətəlayiqdir. Onun işləri müxtəlif zinət əşyaları və xüsusilə də işıq və kölgə arasındakı qarşılıqlı əlaqəni yüksək sənətkarlıqla ifadə etməsi ilə səciyyələnir. Azərbaycan Xalça Muzeyində saxlanılan zərgər Nina Paşayevanın 1976-cı ildə metaldan düzəldilmiş "Piyaləzəng" sırğaları şəbəkə və gavərsə texnikasında düzəldilib. Sırğaların kompozisiyası bir-birinin üstündə yerləşdirilən gül rozetkası, zınqırov və ya çevrilmiş piyalə şəklində olan iki elementdən ibarətdir.

Ədəbiyyat

1. Rasim Əfəndi. "Azərbaycan incəsənəti". Bakı. "Şərq-Qərb". 2007
2. Məhəmməd Nərimanoğlu. "Qol gücü, zindan və alın təri. El sənəti: dəmirçilik". Azərbaycan. 2011. - 4 sentyabr. - S. 5
3. Məhəmməd Nərimanoğlu. "Azərbaycanda misgərliyin tarixi beş əsrə bərabərdir". Azərbaycan. 2014. - 18 dekabr. - S.11
4. Telman İbrahimov. "Bədii metal". Azərbaycan Xalça Muzeyi. Bakı. 2017
5. Sevil Sadıxova. "Azərbaycan zərgərlik sənəti". Mədəni-maarif. 2010. - №1/2. – S.66-70.
6. Sevil Sadıxova. "Zərgərlik". Azərbaycan Xalça Muzeyi. Bakı. 2017

7. Наиля Баннаева. “Благословение, воплощенное в металле”. Kaspi. 2018

The development of the Azerbaijani metal art in the twentieth century

Summary

Azerbaijan folk art has very ancient and rich traditions. Copper, after its discovery in Azerbaijan in the period of eneolit plays an important role in the economic, agricultural, social and cultural life of the people of. In the XX century, 3 kinds of metal art were developing in Azerbaijan. They were the profession blacksmith, coppering and jeweller's art.

Развитие Азербайджанского ремесла по металлу в XX веке

Резюме

Азербайджанское народное ремесло имеет глубокие и богатые традиции. После открытия в Азербайджане в период энеолита меди, металл начал играть важную роль в экономической, хозяйственной, общественной, культурной первобытнообщинной жизни. В XX веке в Азербайджане в ремесле по металлу в основном развивалось по трем видам: железному, медному и ювелирному делам.

Rəyçi: dos.S.Sadıqov

Göndərilib: 14.04.2020 Qəbul edilib: 17.04.2020